Ədalət.- 2017.- 10 mart.- S. 3.

# Hüseyn Kürdoğlunun poeziyasında Azərbaycan təbiəti

Dağların əzəmətini, vüqarını və yaşını onun zirvəsində illərlə, bəlkə də qərinələrlə qalaq-qalaq qalan, aran Qarabağdan həsrətlə baxanda görünən bəyaz qarla müəyyən etmək olar. Qocaman dağların başına gələn tufanlar, fəlakətlər, hadisələr, düçar olduğu qəmli, kədərli günlərdən xəbər verir. Yayın cırhacırında zirvəsində xəstə üçün qar saxlayan dağların hər il görüşünə tələsən, sadə ömür yolu keçmiş bir insan haqqında söz açmaq mənim çoxdankı arzum idi. Elə bir insan ki, illərin sınağından, əzab-əziyyətindən alnı açıq, üzü ağ çıxmışdı. O, tutduğu bu yolu həmişə düz gedib, düz də gələrdi. Büdrəsə də, sınaqdan mərdi-mərdanə çıxmışdı. Pak, təmiz, ədalətli, namuslu, qeyrətli olmaq seçimi bu düz yolda onu yüksəltmişdi, daha da qüvvətli, cəsur, təmkinli və istedad sahibi etmişdir.

Hüseyn Kürdoğlunun həyat və yaradıcılığı haqqında, hörmətli akademik İsa Həbibbəyli, professor Qəzənfər Paşayev sanballı, hikmətli söz demək istəklərinə nail olmuşdular. Onlar Hüseyn Kürdoğlunun zəngin və çoxşaxəli yaradıcılığı haqqında Azərbaycan ədəbiyyatı tarixində xüsusi yeri və çəkisi olması barədə ətraflı söz açmışdılar.

Hüseyn Kürdoğlu haqqında mənim də deyəcəyim sözlər bəlkə də deyilmiş o sözlərin kölgəsində qala bilər. Ancaq, bir oxucu kimi mən də söz deməyi özümə borc hesab etdim.

Hüseyn 1934-cü ildə Laçın rayonunun ən səfalı guşələrindən olan Əhmədli kəndində anadan olmuşdur. Onun uşaqlıq həyatı ecazkar dağ təbiətinin qoynunda keçmişdir. Doğma kəndinin əfsanəvi gözəllikləri, zərif saz havaları, özünün tütəkdə çaldığı yanıqlı el havaları balaca Hüseynin həssas qəlbində dərin izlər buraxmışdır. Məktəbdə oxuyan vaxtlarda öz uşaqlıq həyatı haqqında belə demişdir:

***Ələsgəri, Vaqifi,***
***Oxuyub zövq alardım,***
***Özüm də mahnı qoşub,***
***Tütəyimdə çalardım.***

O, Əhmədli kəndində səkkizillik məktəbini bitirdikdən sonra Qubadlı rayonu Xanlıq kənd orta məktəbində təhsilini davam etdirmişdir. Hüseyn böyük bir ehtirasla elmləri oxuyub öyrənirdi. O, həyata, ürəkdən sevdiyi ədəbiyyata daha dərindən bələd olmaq həvəsi ilə yaşayırdı. Hələ 1950-ci ildə ”Azərbaycan Gəncləri” qəzeti Əliağa Kürçaylı, Gərayy Fəzli, Hüseyn Hüseynzadə, Məmmədhüseyn Əliyev, Əhməd Qasımov kimi gənc istedadlı yazarlarla yanaşı Hüseyn Alışanovun da şeirlərini çap etmişdir.

***qəlbimdə çıraq kimi alışan,***
***Vətən eşqi, məhəbbəti gözəldir.***
***Onun adı, onun eşqi, ülfəti,***
***Nur çiləyən təbiəti gözəldir.***

***

***Bakı, sənsən yurdumuza qan verən,***
***Qoy, var olsun bizə bu dövran verən,***
***Bu ellərə könül verən, can verən,***
***Hüseynin də öz sənətində gözəldir.***

Ataların yaxşı bir el məsəli var ” niyyətin hara, mənzilin ora”. Orta məktəbi bitirdikdən sonra 1953-cü ildə Bakı şəhərində Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olur. Sonra ömrünün axırına kimi, istər tələbə



olanda, istərsə də işləyəndə, hər il Laçın rayonu, Əhmədli kəndinə, anadan doğulduğu kəndə, el-obasına baş çəkməyə, füsunkar təbiətə, dağlara, yaylaqları, buz bulaqları seyr etməyə və onlardan ilham almaq üçün, onların görüşünə gələrdi. Bunu bacarmaq gərək idi. Dağların, yaylaqların, çayların, şəlalənin, buz bulaqların bizi əhatə edən aləmin qədrin biləsən, onu sevəsən ki, ondan da ilham ala biləsən. Onda rahat nəfəs alarsan, onda dinc, rahat yaşaya bilərsən, yazıb-yarada bilərsən.

***Elə bil göylərin yeddi qatından,***
***Şığıyıb enirsən çaya, şəlalə!***
***Öpüşür suların qəhqəhələri,***
***Çağırır bu dağları toya, şəlalə!***

***Bir xeyir xəbərə sanki qaçırsan,***
***Qayanın çiynində qanad açırsan,***
***Gündüzlər günəşə inci qaçırsan,***
***Gecələr ulduza, aya, şəlalə!***

***Hay-haray salırsan vəcdə gələrək,***
***Demirsen qaya da dincəlsin gərək,***
***Şıltaq nəvəsini sevən baba tək,***
***Yorulmur, incimir qaya, şəlalə!***

***Xoşbəxtsən, həmdəmin, sirdaşın olsam,***
***Sazımı sənintək ilhamla çalsam,***
***Yüz illər dayanıb seyrinə dalsam,***
***İnanma gözlərim doya, şəlalə!***

Bəlkə də Hüseyn müəllimin Laçına, bu yerlərə hər il gəlməsi bir bəhanə idi. Vərdiş eləmişdi. Axı O, təbiətin vurğunu idi. Mən onun dağlara, təbiətə diqqətlə tamaşa etdiyinin şahidi olmuşdum. Atlanıb dağlara, yaylaqlara gedəndə də, mindiyi köhlən atı heç vaxt incitməzdi. O, yollar onu ürəyindən keçən, ürəyi istəyən məkana apardı. Əlini çənəsinə söykəyib xəyala dalan , tamaşa etməkdən doymayan vaxtlar çox olubdu. Şair göylərin yeddinci qatından şığıyıb qayalara, daşlara çırpılan suların şaqqıltısını, toya, bayrama bənzədir. Qayaların, daşların çiynində o yana, bu yana qanad açan ləpələrin pıçıltısını, nəğməsini eşidir, dinləyirdi. Çilik-çilik olan damcıları gündüzlər inciyə, gecələr isə aya, ulduza bənzədir. İlham almaqdan doymayan şairin fikirlərini təzələmək üçün bəzən gur saçları onu bir az dincəlməyə ”məcbur edir”. Gözləri üstə tökülən saçlarını sol əlinin barmaqları arasına yığaraq yuxarı, başına tərəf darayardı. Sonra sığal çəkərdi. Yarımçıq qalmış misraları tamamlamaq üçün yenidən o anlara qayıdardı, şəlaləyə tamaşa etməyinə davam edərdi. İlham pərisi sanki həyatda baba ilə nəvənin qaçdı-tutdu oynamasını onun yadına salardı. Baba ilə nəvənin əvəzsiz sevgisinin bir anını, babanı dincəlməyə aman verməyən nəvəsinin şaqqıltısına, şırıltısına bənzətmişdi. Şəlalə axmağına davam edir, şair isə hələ də tamaşa etməkdən, bu mənzərədən ilham almaqdan doymamışdı. Bu mənzərələrin cizgisini, rəsmini həkk etdikdən, cilaladıqdan sonra rənglərin ahəngini tabloya köçürürdü. Yaranan misraları, ləpələrin ahəngini çəkdiyi tablonun ahənginə, pıçıltılarını kəşf etməkdən doymazdı. Buna nail olmaq çətin olardı. Şair birinci növbədə rəssamdı, bəstəkardı. Hədəf seçilmiş mənzərəni şair kəşf etdikdən sonra onu özünə həmdəm, sirdaş şeçir. İlham pərisinə çevrilməsə, ondan ilham almasa, ondan ”doymasa”, illərlə ona tamaşa etməkdən usanmazdı.

Qaya üzərində bitən gül, çiçək, daha gözəl olur. Özünü yada salmaq üçün fəryad qoparır, dərilməsi üçün insanları görəndə ətrafa xoş ətir çiləyir. Qəfəsdə dərd əlindən azad olmaq üçün haray qoparan bülbülün arzusudur ki, qəfəsin ağzı acılsın, dərdin əlindən azad olsun, aləmə qatılsın. Arzusudur ki, onu azad edən şəxs hara getsə bülbülü özü ilə aparsın. Hər bir canlının anadan olan balası gözəl olur. Onun xarici görünüşü xoş təsir bağışlayır. Eşqin, məhəbbətin dan ulduzu hesab olunur. Bir-birlərindən fərqlənən canlılar da həmişə yadda qalan ”urdument şəkli”ndə, gözə görünən bir orqan əmələ gəlir. Təzə anadan olan quzunun boğazının, çənəsinin altında iki ədəd muncuğa oxşar vəz olur. Buna da göz muncuğu deyirlər. Göz muncuğu hər quzuda olmur, nadir hallarda müşahidə olunur. Həmin quzunu yad ünsürlərdən qorumaq savablı işdir - deyirlər. Onun böyüyüb boya-başa çatması bəzən təhlükə ilə rastlaşır. Göz muncuqlu quzunun qəddar düşməni yalquzaq, canavarlardı. Ona hərisdi. Hüseyn müəllim şifahi xalq ədəbiyyatımızın gözəl bilicisi olduğu üçün bu əfsanəni, xalq deyimini öz şeirində vəsf etmişdir. Müəllif bu gözəl nümunənin qorunmasını dilə gətirmişdi. Quzunun xilas olunmasını istəmişdi. Pak, təmiz varlığın vurğunu olan şair Hüseyn Kürdoğlu yad gözlərin gülə, çiçəyə, gözəlliyə bədnəzər gözlərlə baxmasını qəbul etmir.

***Sıldırımda bitən güləm,***
***Qorxmasan gəl qopar məni,***
***Daş qəfəsdə bir bülbüləm,***
***Dərd əlindən qurtar məni,***
***Hara getsən apar məni.***

***Eşqinin dan ulduzuyam,***
***Ulduzların yalqızıyam,***
***Göz muncuqlu bir quzuyam,***
***Yalquzaqlar qapar məni***
***Hara getsən apar məni.***

***Gözlərinə pərvanəyəm,***
***Bil ki, sənsiz divanəyəm,***
***Qum içində dürdanəyəm,***
***Yad gözləri tapar məni,***
***Hara getsən apar məni.***
***Apar məni!***

***Nemət BƏXTİYAR***
***AJB-nin üzvü***

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA KÜTLƏVİ
İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA
DÖVLƏT DƏSTƏYİ FONDUNUN
MALİYYƏ YARDIMI İLƏ